**UOT 37.0**

***Firədun Nadir oğlu İbrahimov***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı*
*https://orcid.org/0000-0002-0775-1048*

***Gülnara Qurbanəli qızı Abdurahmanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının baş müəllimi*
*https://orcid.org/0000-0001-9361-4121*

***Gülnarə Bəhram qızı Qarayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının baş müəllimi*
*https://orcid.org/0000-0002-8347-5145*

# ŞAGİRDİN TƏLİM FƏALİYYƏTİNİN ALTSİSTEMLƏRİ ARASINDA MÜNASİBƏTLƏR

***Фиредун Надир оглы Ибрагимов***
*доктор наук по педагогике, профессор*
*Шекинского филиала Азербайджанского Государственного Педагогического Университета*

***Гюльнара Гурбанали гызы Абдурахманова***
*старший преподаватель*
*Шекинского филиала Азербайджанского Государственного Педагогического Университета*

***Гульнара Бахрам гызы Караева***
*старший преподаватель*
*Шекинского филиала Азербайджанского Государственного Педагогического Университета*

# ВЗАИМОСВЯЗИ МЕЖДУ ПОДСИСТЕМАМИ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧАЩИХСЯ

***Firadun Nadir Ibrahimov***
*doctor of sciences in pedagogy, professor*
*Sheki branch of Azerbaijan State Pedagogical University*

***Gulnara Gurbanali Abdurakhmanova***
*senior lecturer*
*of Sheki branch of Azerbaijan State Pedagogical University*

***Gulnara Bahram Karayeva***
*senior lecturer*
*of Sheki branch of Azerbaijan State Pedagogical University*

# INTERRELATIONS BETWEEN SUBSYSTEMS OF LEARNING ACTIVITIES OF STUDENTS

**Xülasə.** Məqalədə IV sənaye inqilabının çağırışlarına uyğun təhsil məkanının formalaşdırılması zərurətinin onun həyata keçirilməsi ilə bağlı nəzəri və texnoloji istiqamətləri yenidən işlənilməsini aktuallaşdırdı-

ğı vurğulanır. Göstərilir ki, sözügedən təhsilin həyata keçirilmə yolu kimi dərk olunan təlim sisteminin təbiətinin açılması, yeni yanaşmaların aşkarlanması nəzəri və texnoloji araşdırmaları tələb etməsinə baxmayaraq müasir təhsil məkanına uyğun təlim prosesində müstəqil işin təşkilinin nəzəri və texnoloji istiqamətləri yetərincə tədqiq olunmamışdır və bu səbəbdəndir ki, praktikada sübut olunduğu kimi, ümumtəhsil almış şəxslərin üstün hissəsi müstəqil idraki funksiyaları yerinə yetirməkdə çətinlik çəkir. Odur ki, müasir şəraitdə reallaşdırılan təlim prosesində müstəqil işlərin tətbiqinin nəzəri və texnoloji istiqamətləri müəyyənləşdirilməlidir, sözügedən yönümdə mövcud olan “boşluq” aradan götürülməlidir.

Müasir təhsilin həyata keçirilmə yoluna tam (təşkilatlanmış sistem) kimi yanaşılması məntiqidir. Bu sistemdə təhsilalanlar müstəqil və qeyri müstəqil idraki fəaliyyətə cəlb olunurlar. Bu fəaliyyət növləri təlim sisteminin emercent təbiətində asılı olaraq mövcud olur. Sözügedən fəaliyyət növləri vahidin tərəfləri kimi mövcuddur. Onlar böyük sistemin-təlim prosesinin altsistemləridir. Burada sistem-struktur yanaşma əsasında nəzəri və texnoloji istiqamətlərin müəyyənləşdirilməsində, müstəqil işlərin seçilməsində, sistem halına gətirilərək istifadə edilməsində bu yanaşmaya məxsus dialektikaya istinad olunmalıdır.

***Açar sözlər:*** *azadlıq, müstəqillik, fəallıq, fəaliyyətin nisbətən bitmiş elementi, fəaliyyətin altsistemi, müstəqil iş, psixo-didaktik tələblər, əqli fəaliyyətin analitik və evristik növləri.*

**Резюме.** В статье подчеркивается, что необходимость создания образовательного пространства в соответствии с вызовами IV промышленной революции актуализировала теоретические и технологические аспекты его реализации. Отмечается, что, несмотря на открытие сущности системы обучения, открытие новых подходов, теоретические и технологические аспекты организации самостоятельной работы в учебном процессе в соответствии с современным образовательным пространством изучены недостаточно и поэтому доказано на практике, поэтому подавляющее большинство лиц с общим образованием испытывают трудности с выполнением самостоятельных когнитивных функций. Поэтому необходимо определить теоретические и технологические направления применения самостоятельной работы в тренировочном процессе, осуществляемом в современных условиях.

Логично подойти к пути современного образования в целом (организованной системе). В этой системе учащиеся вовлечены в независимую и независимую познавательную деятельность. Эти виды деятельности зависят от эмерджентного характера системы обучения. Эти виды деятельности существуют как стороны единицы. Они являются подсистемами большого системного процесса обучения. Здесь следует упомянуть диалектику этого подхода в определении теоретических и технологических направлений на основе системно-структурного подхода, в отборе самостоятельных работ, в их систематизации и использовании.

***Ключевые слова:*** *свобода, самостоятельность, активность, относительно законченный элемент деятельности, подсистема деятельности, самостоятельная работа, психодидактические требования, аналитические и эвристические виды умственной деятельности.*

**Summary.** The article emphasizes that the need to create an educational space in accordance with the challenges of the IV Industrial Revolution has updated the theoretical and technological aspects of its implementation. It is noted that despite the discovery of the nature of the training system, the discovery of new approaches, the theoretical and technological aspects of the organization of independent work in the learning process in accordance with the modern educational space have not been sufficiently studied and therefore proved in practice. As such, the vast majority of those with a general education have difficulty performing independent cognitive functions. Therefore, the theoretical and technological directions of the application of independent work in the training process carried out in modern conditions should be determined.

It is logical to approach the path of modern education as a whole (organized system). In this system, learners are involved in independent and non-independent cognitive activity. These types of activities exist depending on the emergent nature of the training system. These types of activities exist as parties to the unit. They are subsystems of a large system-learning process. Here, the dialectic of this approach should be referred to in the definition of theoretical and technological directions on the basis of a system-structural approach, in the selection of independent works, in their systematization and use.

***Keywords:*** *freedom, independence, activity, relatively finished element of activity, subsystem of activity, independent work, psycho-didactic requirements, analytical and heuristic types of mental activity.*

**Mövzunun aktuallığı.** IV sənaye inqilabının çağırışlarına uyğun təhsil məkanının formalaşdırılması zərurəti onun həyata keçirilməsi ilə bağlı nəzəri və texnoloji istiqamətlərin yenidən

işlənilməsini aktuallaşdırır. Təbii olaraq gündəmə gəlir ki, sözügedən təhsilin həyata keçirilmə yolu kimi dərk olunan təlim sisteminin təbiətinin açılması, yeni yanaşmaların aşkarlanması nəzəri və texnoloji araşdırmaları tələb edir. Elə bir təlim sistemi formalaşdırılmalıdır ki, bu sistemə tərəf kimi daxil olan təhsilalan XXI əsrin tələblərinə uyğun yaradıcı şəxsiyyətə məxsus keyfiyyətləri əxz etmiş olsun. Bu cəmiyyətə mənsub şəxs təlim prosesində yaradıcılıq təcrübəsinə, müstəqil düşünmə və dərkolunanlara münasibət təcrübəsi əldə etməlidir. Təlim prosesində təhsilalan tədris situasiyasına daxil olaraq müstəqil idraki fəaliyyətin subyekti kimi tərbiyə olunmalıdır. Müasir təhsil məkanına uyğun təlim prosesində müstəqil işin təşkilinin nəzəri və texnoloji istiqamətləri yetərincə tədqiq olunmamışdır, elə bu səbəbdəndir ki, praktikada sübut olunduğu kimi, ümumtəhsil almış şəxslərin üstün hissəsi müstəqil idraki funksiyaları yerinə yetirməkdə çətinlik çəkir. Odur ki, müasir şəraitdə reallaşdırılan təlim prosesində müstəqil işlərin tətbiqinin nəzəri və texnoloji istiqamətləri müəyyənləşdirilməlidir, sözügedən yönümdə mövcud olan "boşluq" aradan götürülməlidir.

*Tədqiqat işinin interpretasiyası.* Şəxsiyyətin fəaliyyətində dörd istiqamət özünü daha çox büruzə verir: özünü və onu əhatə edən aləmi dəyərləri ilə dərketmə fəaliyyəti; bəşərin əldə etdiklərini özünəməxsusluqla mühafizəetmə fəaliyyəti; aləmi və özünü bioloji varlıqdan sosial varlığa yüksəlmə dərəcəsinə müvafiq dəyişdirmə fəaliyyəti; bəşəri dəyərlərlə normallaşdırılan münasibətə daxilolma fəaliyyəti.

Professor L.B. İtelson belə hesab edir ki, bu və ya digər istiqamət üzrə fəaliyyətin sadə bir cari məsələni həll etməyə yönəlmiş nisbətən bitmiş elementi iş adlandırılır. Bizcə, şəxsiyyətin fəaliyyətinə bir sistem kimi yanaşılması baxımından burada "nisbətən bitmiş elementi" termini əvəzinə onun "altsistemi" ifadəsinin işlədilməsi daha məqsədəuyğun olardı [2, s. 169].

Şəxsiyyətin fəaliyyət sisteminin altsistemi olan iş subyekt tərəfindən müstəqil və yaxud qeyri-müstəqil yollarla icra oluna bilər. Fəaliyyətlə onun altsistemi olan iş arasında dialektik bağlılıq mövcuddur. Söylədiklərimiz təlim fəaliyyəti və onun altsistemlərinə də tamamilə aiddir. Təlim prosesində şagird cari bir məsələni həm müəllimin müdaxiləsi ilə, həm də bilavasitə kömək olmadan, əqli və əməli fəaliyyət göstərərək sərbəst yerinə yetirə bilər. İkinci hal müstəqil iş anlayışında öz mahiyyətini saxlayır.

"Müstəqil iş" anlayışının dərki və mahiyyətinin açılması şagirdlərin idrak fəallığının və fəaliyyətinin psixoloji əsasını təşkil edən "təfəkkürün müstəqilliyi" anlayışı ilə sıx bağlıdır. Təfəkkürün müstəqilliyinin mahiyyətinin dərki müstəqil işin mahiyyətini dərk etməyə imkan verməklə yanaşı, şagirdlərin müxtəlif yaş qruplarında müstəqilliyinin dərəcəsini müəyyənləşdirməyə imkan verir ki, bunsuz praktikada şagirdlərin müstəqil işini təşkil etmək olmaz.

Təlim prosesində şagirdlərin müstəqil işini təşkil etmək üçün təfəkkür müstəqilliyinin elmi-psixoloji mahiyyətini düzgün dərk etmək lazımdır.

Təfəkkürün müstəqilliyi şagirdlərin müstəqil işlərinin psixoloji əsasını təşkil etməklə yanaşı, praktikada əqlin çox geniş xassəsidir və tənqidilik də daxil olmaqla əqlin bir sıra başqa xassələrini də özündə əks etdirir. Əqlin tənqidilik xassəsinin iştirakı olmadan təfəkkürün müstəqil fəaliyyəti, müstəqil idrak prosesi, şagirdlərin müstəqil işi ola bilməz. Əqlin tənqidi xassəsi müstəqillik fəaliyyətində ona görə zəruridir ki, şəxsiyyət özü-özünə qiymət verə bilsin, fəaliyyətinin nəticələrini götür-qoy edib müqayisə etsin, səhvləri, nöqsanları göstərsin, məsələni həll etmək üçün seçilmiş yolun doğruluğunu yəqin etsin. Belə olmazsa, müstəqilliyə təfəkkürün tam, dolğun xassəsi demək çətindir.

Lakin təfəkkürün müstəqilliyini təkcə tənqidilik ilə məhdudlaşdırmaq fikri ilə razılaşmayanlar da vardır. Məsələn, S.L. Rubinşteyn belə hesab edir ki, təkcə əqlin tənqidiliyi deyil, bir sıra başqa psixoloji qabiliyyətlər də təfəkkürün müstəqilliyinin fəaliyyəti dairəsinə daxil edilir [7, s. 525]. Onların arasında, hər şeydən əvvəl, iradəni qeyd etmək lazımdır, baxmayaraq ki, psixoloqlar "müstəqilliyi" iradənin mühüm xüsusiyyəti hesab edirlər. M.M. Mehdizadə bu fikirlə razılaşaraq qeyd edir ki, şagirdlərin müstəqil işi hər hansı variantda olsa belə, müəyyən çətinliklərlə qarşılaşır. Bunları yox etmək lazımdır. Məlumdur ki, iradi keyfiyyətləri zəif olan şagird qarşısına qoyulmuş vəzifənin öhdəsindən gələ bilmir [3, s. 184]. Beləliklə, iradi fəaliyyət də müəyyən mənada təfəkkür müstəqilliyinin komponentinə çevrilir.

M.A. İsmixanovun fikrincə, təfəkkürün müstəqilliyi başlıca olaraq şagirdin zehni fəallıq göstərərək müəyyən idrak məsələsini öz qüvvəsi ilə həll etməsi, öz fəaliyyətinə tənqidi yanaşması və fikrən asılı olmamasında ifadə olunur. Təlimdə şagirdin müstəqilliyi onun fəallığı ilə sıx bağlıdır [5, s. 19].

Şübhəsiz, şagirdin fəallığı onun müstəqilliyi üçün mühüm şərtdir: müstəqillik şagirdin müəyyən zehni və əməli fəallığı zəminində mümkündür. Fəallıq da öz növbəsində şagirddən müəyyən müstəqillik tələb edir, şagird təlimdə nə qədər çox müstəqillik göstərərsə, bir o qədər də fəal olur. M.M. Mehdizadənin və M.A. İsmixanovun fikirləri ilə əsasən razılaşmaq olar.

Problemin metodoloji əsasını fəlsəfədə "azadlıq" kateqoriyasının təlimlə əlaqələndirilməsi təşkil edir. Fəlsəfədə "azadlıq" anlayışı haqlı olaraq bir tərəfdən böyük insan kütlələrinin həyatında, onun ümumi-tarixi planda azadlıq və zərurət əlaqəsi kimi nəzərə alınır, ikinci tərəfdən subyektiv-əxlaqi aspektdə, individual daxili fəaliyyəti kimi başa düşülür. M.Q. Mislivçenkonun qeyd etdiyi kimi, birinci aspektdə "azadlıq" formulu ən çox siyasətlə əlaqədardırsa, ikinci aspektdə o, pedaqogika və psixologiya ilə bağlıdır [ 6, s. 192].

M.M. Mehdizadə isə azadlığı fəallıqla əlaqələndirərək yazırdı ki, şəxsiyyətin müstəqilliyi təlim də daxil olmaqla ictimai həyatda fəal iştirak etmək prosesində, yəni aktiv ictimai fəaliyyət prosesində formalaşır. Şəxsiyyətin müstəqilliyinin inkişafı, yəni onun müstəqil qərar qəbul etmək qabiliyyəti, əməli olaraq qəbul etdiyi qərarı, hər hansı bir vəzifəni daxil olduğu sosial qrupun mənafeyinə uyğun həll etməsini, eyni zamanda həmin qrup qarşısında onun məsuliyyətini göstərir. "Məhz həyatın qarşıya qoyduğu vəzifələri müstəqil həll etməklə şəxsiyyətin məsuliyyəti onun müstəqilliyinin üzvi bir funksiyası olmaqla inkişaf edir" – fikrində A.İ. Romanyuk haqlıdır və bu münasibətlə M.M. Mehdizadə göstərir ki, bütün bunlara təkcə bir qeyd artırmaq olar: "Şəxsiyyətin məsuliyyət hissi onun daxili aktivliyi şəraitində, onun yaradıcı və idarəedici-icraedici fəaliyyəti şəraitində, mahiyyət etibarilə onun müstəqilliyinin ana xətti hesab edilir" [s. 193-194].

Deyilənlərə ciddi iradımız olmasa da, bir əlavəyə lüzum görürük ki, bütün aspektlər üçün "azadlıq", "müstəqillik" və "fəallıq" anlayışlarına dialektik əlaqədə baxılmalıdır. Belə ki, insan gerçəkliyi dərk etməsinə, onu dəyişdirə bilmək dərəcəsinə görə öz azadlığını qəbul edir və gerçəkliyin dərk olunması və onun dəyişdirilməsi, müvafiq təcrübənin əldə olunması şəxsiyyətin müstəqilliyindən, ona uyğun gələn fəallığından asılıdır. Eyni zamanda dərk olunanlar, dərk etmənin təcrübəsi, gerçəkliyi dəyişdirmə təcrübəsi şəxsiyyətin müstəqilliyini daha da artırır. Odur ki, "azadlıq", "müstəqillik", "fəallıq" anlayışları bir-birini şərtləndirən və şəxsiyyətin sosial formalaşma səviyyəsini əks etdirən kateqoriyalar sisteminə aid ola bilər. Şəxsiyyətin müstəqilliyini formalaşdırmaq, şagirdlərin fəaliyyətini inkişaf etdirmək, onların iradəsini möhkəmləndirmək, tapşırıqları yerinə yetirərkən qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün müstəqil işin böyük əhəmiyyəti inkaredilməzdir. Təlim prosesində şagirdlərin "müstəqilliyinin inkişafı" və "müstəqil işlərin təşkili və idarə olunması" məsələləri bir-birinə əsaslanır, səbəb və nəticə funksiyalarını ardıcıl və qarşılıqlı şəkildə yerinə yetirir.

Apardığımız nəzəri təhlillərə və iş təcrübəmizə əsasən biz müstəqil işin aşağıdakı kimi dərk olunmasını məqsədəuyğun hesab edirik: Təlim prosesində şagirdi tədris situasiyasına daxil edən tapşırığın yerinə yetirməsinə yönələn fəaliyyətinin bilavasitə kömək olmadan reallaşan altsisteminə onun müstəqil işi deyilir.

Aydınlıq üçün təlim prosesində şagirdin müstəqil işinin tərifində vurğulanan bəzi cəhətlərini şərh etməyi məqsədəuyğun hesab edirik.

Göründüyü kimi, tərifdə şagirdin müstəqil işi onun təlim fəaliyyətinin altsistemi kimi qəbul edilir. Bununla da sistemlə altsistem arasındakı mövcudluğu zəruri olan dialektik münasibətin təlim fəaliyyəti (sistemlə) ilə şagirdin müstəqil işinin (hissə) arasında da olması vurğulanır. Yəni şagirdin müstəqil işi təlim prosesi qarşısında qoyulmuş bütün didaktik vəzifələrin həyata keçirilməsinə əsaslanır. Ona görə də qarşıya qoyulmuş məqsəd şagird tərəfindən dərk olunmalı, həmin məqsəd şagirdin idrak tələbatının ödənilmə obyektinə çevrilməli, qarşıya qoyulmuş tapşırığın tələbinin yerinə yetirilməsi üçün o, cəlb olunduğu fəaliyyətin subyektinə çevrilməlidir. Başqa sözlə, tapşırıq tədris situasiyası yaratmalıdır, hansı ki, tədris situasiyası tədris fəaliyyətinin strukturunun tərkib hissəsidir.

Yeri gəlmişkən vurğulayaq ki, tədris fəaliyyəti çoxcəhətlidir. Təlim tədris fəaliyyətinin mühüm xarakteristikası olsa da, onun bütün tərəflərini əhatə etmir. Tədris fəaliyyəti insan fəaliyyətinin bir növüdür, şəxsiyyətin sosial aktivliyinin özünə məxsus formasıdır. Sözügedən fəaliyyətin strukturunda tədris situasiyası (və ya tapşırıqları) ilə yanaşı tədris əməliyyatları, nəzarət və qiymət tərkib hissələri kimi özünə yer alır. Tədris fəaliyyəti tədris tapşırıqlarının həllindən başlayır. Onun mahiyyəti tapşırıq anlamında əks olunsa da, xarakteri "tədris" anlamı ilə bağlıdır. Tədris tapşırıqları şagirdlərin özlərinin tədris fəaliyyətində müxtəlif problemlərin və konkret praktik məsələlərin ümumi həll üsullarını (prinsiplərini, qanunauyğunluqları) kəşf etməsini və mənimsəməsini nəzərdə tutur [1, s. 150].

Müstəqil iş prosesində idarəedən, idarəolunan və onlar arasındakı münasibətlər, təlim materialı dəyişmədə və inkişafdadır. Müstəqil işlə qeyri-müstəqil işin vahidliyi, sistemliyi, tamlığı, əhatəliliyi, asılılığı, ziddiyyətsizliyi, müntəzəmliliyi gözlənilməlidir.

Müstəqil işi təşkil etmək, onu idarə etmək müəllimin məqsədyönlü əqli fəaliyyətidir, onun qarşısında duran didaktik təbiətli idrak məsələsinin həllində elementdir. Başlıcası isə o, alqoritmik və evristik cəhətlərə malikdir.

Müstəqil iş altsistem olaraq nisbi müstəqilliyə malikdir. Onun təşkil edilmə və nizamlanma vasitələri sual, çalışma və məsələlərdir.

Təlim prosesində müstəqil iş nisbi müstəqilliyə malik funksiyaların yerinə yetirilməsinə istiqamətlənməklə yanaşı, bu funksiyalar prosesin ümumi məqsədlərindən irəli gəlir. Müstəqil işin təlim prosesində yeri bu prosesin komponentlərinin uzlaşması və idarəolunma məntiqi ilə müəyyənləşir.

Vurğulamaq yerinə düşər ki, təlim prosesi təşkilatlanmış sistem, tam olmaqla ona müxtəlif yanaşmalar vardır. Bunlardan bəziləri pedaqoji fikrin tarixində qalmış, bəziləri özünə nəzərən daha mükəmməl sistemin alt sisteminə çevrilmiş, ehtiva olunan hala gəlmişdir. Müstəqil iş aid olduğu sistemin emercent təbiətinə uyğun tətbiq olunur, təzahür edir, imkandaşıyıcılıq funksiyasını yerinə yetirir. Hazırda ümumtəhsil məktəblərində xüsusi yeri olan fəal təlimin təşkilat formasının bütün mərhələlərində məxsusi yerə malikdir.

Müstəqil işin təşkili üçün tapşırıq əsasən müəllim tərəfindən didaktik məqsədlərlə şagirdin və ya şagirdlərin müstəqillik dərəcəsinə uyğun müəyyənləşdirilir. Müəllim təşkiletmə-tənzimləmə funksiyalarını müəyyən məntiqi formaya malik tapşırıqla həyata keçirir. Burada başlıca əlamət şagirdin tapşırığı icraetmə prosesinə müdaxilə olunmaması, onun müstəqil fəaliyyət şəraitinin təmin olunmasıdır. Müstəqil iş təlim prosesinin altsistemi olmaqla vaxt məhdudiyyəti xassəsinə malikdir. O, təlim prosesinin müxtəlif mərhələlərində tətbiq oluna bilir. Müstəqil iş şagirdin inkişafını sürətləndirməklə konkret tədris-idrak və tədris-təşkilati funksiyaların yerinə yetirilməsi imkanlarını genişləndirir, təlim prosesinin yaxşı idarə olunmasını şərtləndirir.

Şagirdlərin müstəqil işinə bir sıra tələblər verilir, bu tələbləri növlərə bölmək, onları təsnif etmək də mümkündür. Müstəqil işlərə verilən psixo-didaktik tələblərə aşağıdakıları aid etmək mümkündür:

**1.** Müstəqil iş əvvəlcədən qarşıda duran didaktik vəzifələr əsasında layihələndirilir.

Hər bir müstəqil işin didaktik vəzifəsi iki mühüm istiqaməti özündə saxlamaqdır:

1) Təlim prosesinin ümumi məqsədini:

a) bəşərin öz tarixi inkişaf prosesində əldə etmiş olduğu təcrübənin mənimsənilməsini; b) onun qorunması təcrübəsini; c) insanın və onun mənsub olduğu cəmiyyətin sivilizasiyası və azadlığı üçün zəruri olan yaradıcı təcrübənin əldə olunması hazırlığına istiqamətlənmək; ç) əvvəlki üç məqsədlə üzvi şəkildə bağlı olan insanların birgə yaşaması, dünya pəncərəsinin onlar üçün açıq olmasını şərtləndirən keyfiyyətlərin əldə olunmasına istiqamətlənməsi,

2) Təlim prosesinin yaxşı idarə olunan prosesə çevrilməsini.

**2.** Müstəqil işin təşkil olunması və idarə olunması üçün onun yerini və şagirdləri əhatə etmək formasını müəyyənləşdirmək lazımdır.

Müstəqil işlər yerinə görə təlim prosesinin bütün mərhələlərinə aid edilə bilər:

a) öyrənmənin əsaslandırılması və keçmiş təcrübəni aktuallaşdırmasında;

b) biliyin əldə olunmasında;

c) biliyin tətbiqi, sistemə salınmasında;

ç) proses və nəticələrin müəllim və şagirdlərin özü tərəfindən qiymətləndirilməsində.

Şagirdləri əhatə etmə formasına görə a) fərdi, b) qoşa, c) qrup, ç) frontal olaraq müəyyənləşdirilir.

**3.** Müstəqil işin davametmə müddəti, keçmiş bilikləri əhatə etməsi, yeni biliyin çətinlik dərəcəsi, şagirdlərin potensial imkanlarına uyğunluğu müəyyənləşdirilməlidir. Odur ki, müstəqil işlərin nomenklaturasına daxil edilmiş müxtəlif növlərdən hansının tətbiq ediləcəyi dəqiqləşdirilməlidir.

**4.** Tapşırığın növü əvvəlcədən seçilməli və tapşırığın formulası haqqında müəllim hərtərəfli fikirləşməlidir. Məktəbin imkanları, müəllimin özünün hazırlığı, təlim materialının məzmunu və şagirdin (və ya şagirdlərin) imkanlarını da ciddi şəkildə nəzərə almaq vacibdir.

**5.** Tapşırığın şərti və tələbi şagirdə aydın olmalıdır. Ola bilər ki, aparılmış işin məntiqi davamı kimi şagirdlə birgə iş üçün tapşırıq formalaşsın və bu halda əlavə izahat və göstərişə heç də ehtiyac olmasın. Əgər varsa, onda mütləq şagirdə zəruri və aydınlıq gətirən təlimat verilməlidir.

**6.** Müstəqil işin tətbiqində ardıcıllıq, sistematiklik, inkişaf gözlənilməlidir. Şagirdi müstəqil və sərbəst təhsilə, həyata hazırlamaq üçün bu işin əhəmiyyəti diqqət mərkəzində saxlanılmalıdır.

**7.** Şagirdlərin müstəqil işində ümumiləşdirmə, sistemləşdirmə, dəyişdirilmiş situasiyalarda biliyin tətbiqi və yeni ünsürlərin olması vacibdir.

Müstəqil işin icrası əldə olunmuş biliklərə, vərdiş və bacarıqlara, həyat təcrübəsinə, müşahidələrə əsaslanmaq tələbini özündə saxlamaqla, daha ümumi bilik, bacarıq və vərdişlərin, təcrübənin əldə olunmasına şagirdi istiqamətləndirməlidir. Müstəqil iş öz məzmunu, əyləncəliyi, məntiqiliyi ilə şagirdin öyrənməyə maraq və meyllərinin yaxşılaşmasına səbəb olmalıdır. Müstəqil iş şagirdin ən mühüm şəxsi keyfiyyətlərindən hesab olunan qiymətləndirmə (düzgün və ədalətli) qabiliyyətinin formalaşmasına təkan verməlidir.

**8.** Müstəqil iş sistemi özündə zehni və əməli fəaliyyətin vəhdətini saxlamalıdır. Müstəqil iş zamanı şagirdin əqli fəaliyyətinin alqoritmik və evristik cəhətlərinin vəhdətdə inkişafı, öz fəaliyyətini idarəetmə subyekti kimi formalaşması üçün iş şəraiti müəllimin düzgün rəhbərliyi ilə yaxşılaşmalıdır. Müəllim rəhbərlik işini konkret şəraitə uyğun olaraq daim tənzimləməlidir.

Pedaqoji ədəbiyyatda müstəqil işlərin növləri kimi irəli sürülən təsnifatların bəzilərinin müstəqil işin funksional cəhətinə (biliklərin mənimsənilməsi, bacarıq və vərdişlərin formalaşması və yoxlanılması məqsədini güdən işlər), bəzilərinin müstəqil iş zamanı şagirdlərin müstəqillik səviyyəsinə (nümunə üzrə, yenidənqurma və yaradıcı işlər), bəzilərinin müstəqil işin mənbəyinə (kitab üzrə, məlumat ədəbiyyatı üzrə, məsələ həlli və çalışmalar üzrə iş və s.), bəzilərinin müəllimin kömək dərəcəsinə (qeyri-müstəqil, yarımmüstəqil, tam müstəqil işlər), bəzilərinin isə müstəqil işin təşkili formasına (frontal, qrup, cüt və fərdi işlər) aid edilməli olduğu göstərilir. Müstəqil iş növlərinin ayrı-ayrı fənlərin xüsusiyyətindən, konkret tədris situasiyasından asılı olaraq müxtəlif məzmunda ola bildiyi vurğulanır [4, s. 300-313].

Şagirdlərin müstəqil və qeyri-müstəqil işlərinin vahid prosesin altsistemləri kimi dialektik vəhdətinin nəzəri və praktik yolu bütün təfərrüatı ilə işlənilməmişdir. Bu işdə aşağıdakı məqamlara diqqət yetirilməlidir:

1) Təlim prosesinin qarşıya qoyulmuş didaktik məqsədlərə uyğun cərəyan etməsi, şagirdlərin fəaliyyətinin nəticələri onun əqli fəaliyyətinin iki mühüm cəhətinin – analitik (alqoritmik) və evristik növlərinin inkişaf səviyyəsindən, onların vəhdətdə cərəyan etməsindən çox asılıdır.

2) Şagirdin inkişafının istiqamət və sürəti qoşulduğu fəaliyyət növlərindən, onların tənzimlənməsindən asılıdır. Eyni zamanda şagirdin şəxsiyyətinin inkişaf xüsusiyyətləri qoşulmuş olduğu fəaliyyətdə təzahür edir.

Bu iki məntiqi arqumentə əsasən söyləmək olar ki, təlim prosesində şagirdin əqli fəaliyyətinin hər iki növünün (alqoritmik və evristik) inkişaf səviyyəsinə əsaslanmaq, onların daha da inkişafına (vəhdətini təmin etməklə) istiqamətlənmək lazımdır. Müstəqil işlər təlim fəaliyyətinin alt sistemi kimi özündə bu cəhətləri saxlamalıdır.

Təlim prosesinin cərəyanetmə məntiqinə müvafiq olan, şagirdlərin alqoritmik və evristik fəaliyyətinin optimal münasibətlərini özündə ehtiva edən, praktik cəhətdən əlverişli hesab etdiyimiz və iş təcrübəmizdə istifadə edərək səmərəli nəticələrə nail olduğumuz müstəqil iş sistemi və onun nomenklaturası aşağıdakı kimidir:

1. Təlim prosesi qarşısında qoyulan məqsədin şagirdin (və ya şagirdlərin) tələbatının tə-

minolunma obyektinə çevrilməsinə istiqamətlənən proqramlaşdırılmış və ya proqramlaşdırılmamış müstəqil iş tipi.

Müstəqil işlərin bu tipinə aşağıdakı növləri aid edirik:

1) Materialın tədris, inkişaf, sonrakı fəaliyyət üçün faydalılığının dərk olunmasına aid müstəqil işlər;

2) Əyləncəli və cəlbedici çalarları ilə materialın öyrənilməsinə şagirdləri istiqamətləndirən müstəqil işlər;

3) Problemli vəziyyət yaratmağa xidmət edən müstəqil işlər;

2. Biliyin və fəaliyyət üsullarının əsasən hazır şəkildə ötürülməsi zamanı tətbiq olunan müstəqil işlər tipi (proqramlaşdırılmış və yaxud proqramlaşdırılmamış).

Bu tipə əsasən fikri fəaliyyətə aid olan müstəqil işlərin aşağıdakı növlərini aid edirik:

1) keçmişdə öyrənilmişləri aktuallaşdırmağı və xatırlamağı tələb edən müstəqil işlər, 2) məşqetdirici, mühüm qaydanı və ya qanunu oxşar hallara tətbiq etməyi tələb edən müstəqil işlər, 3) şərhedici və izahlı müstəqil işlər, 4) əsaslandırmağı tələb edən müstəqil işlər, 5) alqoritmləşdirməyə aid müstəqil işlər, 6) dəyişdirilmiş situasiyalarda biliyin tətbiqinə aid müstəqil işlər, 7) diskussiya ilə bağlı müstəqil işlər və s.

Əsasən praktik fəaliyyətə aid müstəqil iş növləri: 1) tədris-praktik xarakterli müstəqil işlər: 2) ictimai-praktik xarakterli müstəqil işlər.

3. Problemli öyrənmə zamanı tətbiq olunan idrak-axtarış (evristik) müstəqil iş tipi.

Bu tipə aşağıdakı müstəqil iş növlərini aid edirik:

1) Problemli şərhlə bağlı tətbiq olunan müstəqil işlər: ziddiyyətlərin aradan götürülməsi, açılmamış (müəllimin şərhində) materialı şagirdin müstəqil öyrənməsi, ümumiləşdirməni yerinə yetirməsi.

2) Qismən axtarışla bağlı tətbiq olunan müstəqil işlər.

3) Problemli məsələ, sual, çalışmaların tətbiqi vasitəsi ilə idarə olunan müstəqil işlər: təhrikedici müstəqil işlər; konstruksiyaedici, müəyyənləşdirici müstəqil işlər; eksperimental-axtarış üzrə müstəqil işlər; məntiqi-axtarış üzrə müstəqil işlər və s.

4. Yaradıcı xarakterli müstəqil işlər tipi.

Bu tip müstəqil işlərin aşağıdakı növlərini fərqləndiririk: 1) bədii-obrazlı; 2) elmi-yaradıcı; 3) konstruktiv-texniki; 4) təcrübi-yaradıcı.

**Nəticə.** Müasir təhsilin həyata keçirilmə yoluna tam (təşkilatlanmış sistem) kimi yanaşılması məntiqidir. Bu sistemdə təhsilalanlar müstəqil və qeyri müstəqil idraki fəaliyyətə cəlb olunurlar. Bu fəaliyyət növləri təlim sisteminin emercent təbiətində asılı olaraq mövcud olur. Sözügedən fəaliyyət növləri vahidin tərəfləri kimi mövcuddur. Onlar böyük sistemin-təlim prosesinin altsistemləridir. Burada sistem-struktur yanaşma əsasında nəzəri və texnoloji istiqamətlərin müəyyənləşdirilməsində, müstəqil işlərin seçilməsində, sistem halına gətirilərək istifadə edilməsində bu yanaşmaya məxsus dialektikaya istinad olunmalıdır.

**Ədəbiyyat:**


1. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. – Bakı: Pedaqogika, – 2004, – 432 s.
2. Ümumi psixologiya(A.V. Petrovskinin redaktorluğu ilə). – Bakı: Maarif, –1982, – 494 s.
3. İbrahimov, F.N. Təlimdə sistemdaxili münasibətlər. – Bakı: Mütərcim, – 1999, – 108 s.
4. İbrahimov, F.N. Təlimdə alqoritmik və evristik fəaliyyətin optimal nisbətlərinin əsaslarına dair ocerklər. – Bakı: Mütərcim, – 1998, – 398 s.
5. İsmixanov, M.A. İbtidai təlimdə şagirdlərin müstəqil işi. – Bakı: Maarif, – 1978. – 84 s.
6. Mehdizadə, M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. – Bakı: Maarif, – 1982, – 382 s.
7. Рубинштейн, С.Л. Основы обшей психологии. – Санкт-Петербург: Питер, – 2001, – с.720.



**E-mail**: firedun ibrahimov@ gmail.com
gulnara_adpusheki@mail.ru
qarayevagulnare@mail.ru



**Rəyçilər:** *fəls.ü.fəls.dok., dos.* **G.A. Abdullayeva,**
*ped.ü.fəls.dok., dos.* **S.R. Bədiyev**
**Redaksiyaya daxil olub:** 20.04.2022